*Layihə*
***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2023-cü il 28 sentyabr tarixli***
***359/3 nömrəli qərarı ilə bəyənilmişdir***

# Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı NƏZARƏT PROQRAMI

## I. Giriş

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı NƏZARƏT PROQRAMI" (bundan sonra "Nəzarət Proqramı" adlandırılacaq) Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"ndan, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu"na (2010-2020-ci illər) dəyişikliklər edilməsi barədə" 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamından və Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 28 mart tarixli 1/10 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-cü il üzrə İş Planı"nından irəli gələn vəzifələrin icrası ilə əlaqədar hazırlanmışdır.

Bu sənəd sərbəst auditorlar və auditor təşkilatları tərəfindən "Cinayət yolu ilə əldə əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununu ilə auditor xidməti göstərən şəxslər tərəfindən monitorinqə məruz qalmalı olan xidmətlər göstərildiyi halda tətbiq olunmalıdır.

## II. Əsas anlayışlar

Bu Nəzarət Proqramının məqsədləri üçün əsas anlayışlar aşağıdakıları ifadə edir: İstifadə olunan digər anlayışlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununu kontekstində qəbul edilməlidir.

Qanun - "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 2022-ci 30 dekabr il tarixli 782-VIQ nömrəli Azərbaycan Respublikasının Qanunu;

Palata - Azərbaycan Respublikasının Auditorlar Palatası;

Cinayət yolu ilə əldə edilmiş əmlak – Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi əmlak nemətləri, o cümlədən virtual aktivlər və əmlaka mülkiyyət hüquqlarını və maraqlarını təsdiq edən hüquqi alətlər və sənədlər;

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

Terrorçuluğun maliyyələşdirilməsi – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

Monitorinq – mənbəyi məlum olan məlumatlar və sənədlər əsasında maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilən araşdırma tədbirləri;

Maliyyə monitorinqi orqanı – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən, habelə bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

Öhdəlik daşıyan şəxslər – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək öhdəliyi olan maliyyə institutları, eləcə də qeyri-maliyyə institutları və peşə sahibləri;

Maliyyə institutları – kredit təşkilatları, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri, investisiya şirkətləri, investisiya fondları, bu fondların idarəçiləri, xarici investisiya fondlarının nümayəndəlikləri, mərkəzi depozitar, poçt rabitəsinin milli operatoru, lombardlar, maliyyə lizinqi xidmətləri göstərən şəxslər, virtual aktiv xidməti təminatçıları və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər;

Qeyri-maliyyə institutları və peşə sahibləri – rieltorlar, vəkillər, notariuslar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri;

Nəzarət tədbirləri – Palata və maliyyə monitorinqi orqanı tərəfindən öhdəlik daşıyan şəxslərə, habelə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə tətbiq edilən bütün növ yoxlama tədbirləri, o cümlədən nəzarət, araşdırma, müşahidə, təftiş, baxış və digər oxşar tədbirlər;

Xarici hüquqi təsisat – xarici dövlətdə (ərazidə) qüvvədə olan qanunvericiliyə uyğun olaraq hüquqi şəxs yaratmadan təsis edilən və fiziki və ya hüquqi şəxs olan təsisçi tərəfindən benefisiarın və ya benefisiarlar qrupunun faydalanması və ya xüsusi məqsədlər çərçivəsində xarici hüquqi təsisat təminatçısının nəzarəti şərtilə və ya belə şərt olmadan əmlakın xarici hüquqi təsisat idarəçisinin mülkiyyətinə verilməsi ilə bağlı fəaliyyəti həyata keçirən trast və ya analoji xüsusiyyətlərə malik digər təsisat. Xarici hüquqi təsisatın təsisçisi, idarəçisi, təminatçısı, benefisiarı və ya benefisiarlar qrupu dedikdə xarici hüquqi təsisatın təsis sənədindən irəli gələn müvafiq hüquq və vəzifələri daşıyan şəxslər nəzərdə tutulur;

Müştəri – öhdəlik daşıyan şəxslərin hər hansı xidmətindən istifadə edən şəxs və ya xarici hüquqi təsisat;

Benefisiar mülkiyyətçi – son nəticədə müştəriyə nəzarəti həyata keçirən və ya hüquqi şəxs, yaxud xarici hüquqi təsisat olan müştərinin əsl sahibi olan və (və ya) xeyrinə əməliyyat aparılan və (və ya) əqdlər bağlanılan, habelə son nəticədə hüquqi şəxs və ya xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər);

Mühüm iştirak payı – nizamnamə kapitalının, habelə səsvermə hüququnun 10 (on) və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik;

Valyuta sərvətləri və milli valyuta – nağd milli və ya xarici valyuta, milli və xarici valyutada adsız sənədli qiymətli kağızlar, qiymətli metallar və qiymətli daşlar;

Məlumat və sənədlər – yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq öhdəlik daşıyan şəxslərin, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin

ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının, habelə digər dövlət orqanlarının (qurumların) fəaliyyəti nəticəsində əməliyyatlar (əqdlər) (bundan sonra – əməliyyatlar) və (və ya) işgüzar münasibətlər barədə yaranan, saxlanılan və ya qeydə alınan faktlar, rəylər, xəbərlər və ya digər xarakterli məlumatlar, kağız və ya elektron formada sənədlər. Bu anlayış, eyni zamanda, müxtəlif məlumat bazalarında yaradılan, saxlanılan, qeydə alınan, habelə internet və ya digər informasiya ehtiyatlarında toplanan faktları, xəbərləri və ya digər xarakterli məlumatları və ya sənədləri də əhatə edir;

Elektron köçürmələr – maliyyə vəsaitlərinin fiziki və ya hüquqi şəxslər tərəfindən maliyyə institutlarının təqdim etdiyi elektron üsullarla (bank hesabı vasitəsilə, hesab açmadan və ya yeni ödəniş metodları ilə) vəsaiti alana (elektron köçürmə zamanı ödəyici və vəsaiti alan eyni şəxs ola bilər) çatdırılması məqsədilə aparılan transsərhəd və ya ölkədaxili əməliyyatlar. Ödəniş kartlarından istifadə etməklə məhsulların, xidmətlərin alışı zamanı bütün əməliyyat zənciri boyunca kartı müəyyən etməyə imkan verən unikal məlumatların ötürüldüyü köçürmələr və maliyyə institutları arasında öz məqsədləri üçün hesablaşmalar və köçürmələr elektron köçürmə hesab edilmir;

Işgüzar münasibətlər – öhdəlik daşıyan şəxslərin peşəkar fəaliyyətinin həyata keçirilməsi zamanı öz müştəriləri ilə formalaşdırdıqları, tərəflərin qarşılıqlı hüquq və vəzifələrinə əsaslanan, birdəfəlik xarakter daşımayan peşəkar münasibətlər;

Yüksək riskli zonalar – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mötəbər mənbələr (beynəlxalq təşkilat və qurumlar tərəfindən dərc edilmiş qarşılıqlı qiymətləndirmə və ya təfsilatlı hesabatlar, habelə tərəqqi hesabatları) əsasında müəyyən edilmiş adekvat mübarizə sistemi olmayan, silahlı separatizmi, ekstremizmi, muzdluluğu və terror fəaliyyətini dəstəkləyən, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumat və sənədlərinin açıqlanmasını tələb etməyən və beynəlxalq təşkilatlar tərəfindən barəsində sanksiyalar və ya digər analoji tədbirlər tətbiq edilən dövlətlər və ya ərazilər.

## III. Risk əsaslı yanaşma

Auditor və auditor təşkilatları tərəfindən cinayət yolu əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan halları aşkarlamaq məqsədilə tətbiq edilən tədbirlər zamanı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə müvafiq olaraq aşağıdakılar nəzərə alınmalıdır:

Qanunun tələbləri mühasibat və vergi məsləhəti xidmətləri göstərən auditorlara münasibətdə aşağıdakı əməliyyatları apardıqda və ya bu cür əməliyyatların aparılmasında iştirak etdikdə tətbiq olunur:

- daşınmaz əmlakın alqı-satqısı;
- müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması;
- müştərinin bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması;
- hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkili, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı.

Aşağıdakı hallar olduqda məbləğindən asılı olmayaraq, əməliyyatlar və ya belə əməliyyatların aparılmasına cəhdlər barədə məlumat və sənədlər öhdəlik daşıyan

şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim edilir:

- əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar;
- əmlakın terror aktının hazırlanmasında, təşkil olunmasında və ya törədilməsində, habelə terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunacağı ilə bağlı şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar.

Aşağıdakı əməliyyatlar barədə məlumat və sənədlər məbləğindən və ya şübhəlilik əsaslarının mövcud olub-olmamasından asılı olmayaraq öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim olunur:

- xarici dövlətlərin siyasi nüfuzlu şəxsləri, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslər tərəfindən həyata keçirilən istənilən əməliyyatlar;
- “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə əməliyyatlar;
- Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin bank hesabları üzrə əməliyyatlar.

Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 4.14-cü, 4.15-ci və 11.1–11.3-cü maddələrində nəzərdə tutulmuş məlumat və sənədləri maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydada ona təqdim etməlidirlər. Həmin Qanunun 11.1-ci, 11.3.1-ci və 11.3.3-cü maddələrində nəzərdə tutulmuş məlumat və sənədlər maliyyə monitorinqi orqanına əməliyyat həyata keçirildikdən sonra 3 iş günü ərzində, Qanunun 4.14-cü, 4.15-ci və 11.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda isə məlumat və sənədlərin təqdim edilməsinə dair əsaslar müəyyən edildikdən dərhal sonra, lakin hər bir halda həmin iş gününün sonundan gec olmayaraq təqdim edilməlidir.

Maliyyə hesabatlarının auditi və ya əlaqəli auditor xidmətlərinin göstərilməsi zamanı auditor yuxarıda sadalanan əməliyyatları icra etmiş iqtisadi subyektlərdə risk əsaslı yanaşma tətbiq etməlidir. Bu özü də iqtisadi subyektin bütün bank əməliyyatlarının, hesablaşmalarının diqqətlə araşdırılmasını və təhlilini, habelə zəruri hallarda daha ətraflı araşdırmaların aparılmasını ehtiva edir. Eyni zamanda eyniləşdirmə və verifikasiya tədbirlərinin görülməsi zəruridir:

Auditorlar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan hallarda həmin tədbirləri aşağıdakı qaydada tətbiq etməlidirlər:

- işgüzar münasibətlərin yaradılmasından əvvəl;
- iyirmi min manat məbləğində (bundan sonra – limit) və ya limitdən artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala, həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);
- əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;
- əldə edilmiş məlumat və sənədlərin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda.

Eyniləşdirmə və verifikasiya tədbirləri qanunvericilikdə nəzərdə tutulan prosedurlara zəruri səviyyədə əməl etməklə aparılmalıdır.

## IV. ƏL/TM RİSKLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ

ƏL/TM risklərinə dair dəqiq və obyektiv məlumatın vaxtında əldə edilməklə, risklərin müəyyən olunması və qiymətləndirilməsi bu sənədin əsasını təşkil edir. Auditorlar aşağıda göstərilən hallarda ƏL/TM risklərinin dəqiq müəyyənləşdirilməsi, qiymətləndirilməsi və azaldılmasında çətinliklərlə üzləşə bilərlər:

(i) məlumatın dəqiq olmaması,

(ii) risk qiymətləndirilməsi zamanı səlahiyyətli orqanlar tərəfindən qeyri-adekvat məlumatlardan istifadə edilməsi,

(iii) səlahiyyətli orqanların ƏL/TM riskləri və təhlükələrinə dair vacib məlumatlarla bölüşmək imkanlarının olmaması,

(iv) müvafiq məlumatların əldə edilməsində problemlərin olması.

## V. ƏL/TM RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

ƏL/TM üzrə milli risk qiymətləndirilməsi müvafiq risklərin təsirinin qiymətləndirilməsini də özündə əks etdirir. Belə ki, risklərin yaranma ehtimalı və risklərin makro-səviyyədə nə dərəcədə təsir edəcəyini öyrənilməlidir. Risk qiymətləndirilməsinin nəticələri əsasında ƏL/TM riskləri aşağı, orta və yüksək səviyyəli kimi qeyd olunur (müəyyən aralıq göstəricilər də ola bilər: orta-yüksək və ya aşağı-orta). Qeyd olunan kateqoriyalardan ƏL/TM risklərinin anlanması və onların prioritetliyinin müəyyənləşdirilməsi məqsədi ilə istifadə olunur. ƏL/TM risklərinin qiymətləndirilməsi sadə kəmiyyət və keyfiyyət xarakterli məlumatların toplanmasını nəzərdə tutmur: qiymətləndirmə ƏL/TM risklərinin effektiv azaldılması üçün əsas yaradır və hər zaman real vəziyyəti əks etdirməlidir. Risk qiymətləndirilməsi və nəticələrinin təhlili üçün Auditorlar Palatası təcrübəli, peşəkar və etibarlı işçilərə, müvafiq avadanlıq və proqram təminatına malik olmalıdır.

## VI. ƏL/TM RİSKLƏRİNİN DƏRK EDİLMƏSİ

Auditorlara aid olan ƏL/TM riskləri Palata tərəfindən araşdırılmalıdır. ƏL/TM risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün Palata müxtəlif məlumat mənbələrinə müraciət edir.

Sektoral risklər üçün bu mənbələr çox vaxt və yalnız bunlarla məhdudlaşdırılmadan milli risk qiymətləndirilməsi, yerli və beynəlxalq tipologiyalar, nəzarət təcrübəsi habelə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin (MMX) məlumatlarından ibarət ola bilər.

Auditor təşkilatları üzrə Palata onlara aid müvafiq məhsul və xidmətlərin təbiəti, mürəkkəbliyi, monitorinq subyektlərinin ölçüsü, növü, korporativ idarəetmə strukturu, maliyyə və mühasibatlıq məlumatları, istifadə edilən distribusiya kanalları, müştəri profilləri, coğrafi yerləşmə və əməliyyat etdiyi ölkələr kimi amilləri əhatə edən daxili risk səviyyəsini nəzərə ala bilər, həmçinin mövcud daxili nəzarət mexanizmləri, o cümlədən riskin idarə edilməsi siyasətinin keyfiyyəti, daxili audit funksiyalarının tətbiq edilməsi səviyyəsinə baxa bilər.

Bu məlumatların bəziləri daxili nəzarət vasitəsi ilə əldə edilə bilər. Digər müvafiq məlumatlar auditor təşkilatının rəhbərliyi və ƏL/TMM üzrə məsul şəxslərinin vətəndaş qüsursuzluğuna dair məlumatları daxil edir.

## VII. ƏL/TM RİSKİNİN AZALDILMASI

FATF Tövsiyələri nəzarət orqanlarıdan daha riskli ƏL/TM sahələrinə daha çox resursların ayrılmasını tələb edir. ƏL/TMM məqsədi ilə bütün auditorlara gücləndirilmiş nəzarətin mümkün ƏL/TM riskinin qiymətləndirməsi nümunələri FATF-ın tövsiyələrində tapmaq olar. Bu olmadığı təqdirdə, ən yüksək riskli sahələrə daha çox prioritet verilməsini nəzərdə tutur.

Palata risk səviyyəsinə uyğun olaraq əməliyyatların avtorizasiyası üçün tələb olunan məlumatın həcmini dəyişdirə (daha riskli əməliyyatlar və ya təşkilatlar üzrə daha çox məlumat tələb etmək), habelə yoxlamaların növü (kameral/səyyar), sayı və intensivliyini müəyyən edə bilər.

**Tövsiyə olunan mənbələr:**

- "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;
- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı
- "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə;
- Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı http://www.fiu.az/uploads/content/docs/sanctions/years/sanctioned_list_az.pdf
- Pullarin leqallaşdirilmasi və terrorçuluğun maliyyələşdirilməsi üzrə kredit təşkilatlarina risk-əsasli nəzarətin tətbiqinə dair metodoloji rəhbərlik file:///C:/Users/User/Desktop/%C6%8FL_TMM%202023%20TOPLU/Metodoloji-rehberlik-nezaret-kredit-teskilatlari.pdf
- Barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Beynalxalq Siyahısı http://www.fiu.az/sanctions/external-sanctioned
- Barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ölkədaxili Siyahısı http://www.fiu.az/sanctions/internal-sanctioned

**Tərtib etdi:**
**Nəcəf Talıbov - Sədrin elmi-metodik məsələlər üzrə müşaviri**

**Elnur İbrahimov- Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi**

**Bəhruzə Qasımova - Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəis müavini**